

Əsgər ZEYNALOV

# KÖKLÜ NƏSLİN ŞAXƏLƏRİ

**XIX əsrin ortalarında İrəvan şəhərinin məşhur Gedərçay məhəlləsində Qurbanəli adında bir şəxs yaşayırdı. Onun iki övladı vardı: Məmmədkərim və Ələkbər. Nədənsə, axtarış apardığımız qaynaqların heç birində bu adamların adlarına təsadüf etmədik. Görünür, tale həmin soykökün adını tarixdə həmişəlik yaşatmaq qismətini sonraya saxlamışdı.**

Məmmədkərim İrəvanın bəy nəslindən Zəhra xanım Süleymanbəyova ilə ailə qurur. Demək lazımdır ki, Zəhra xanımın anası Bilqeys Qazıyeva İrəvan quberniyasının zadəganlarından Mirzə Cabbar Qazıyevin nəslindən idi.

Məmmədkərimin beş övladı olmuşdu: Tərlan, Göyçək, Əziz, Şamama, Ziyad.

1918-ci ildə İrəvanda milli zəmində olan qarışıqlıqla əlaqədar ailə öz doğma yurdunu tərk etməli olmuşdu.

Tərlan xanım həyat yoldaşı ilə İranda yaşamışdır.

Göyçək xanım tibb texnikumunu bitirmişdi. Bu nəslin xamırı sanki təbabətlə yoğrulmuşdu. Sonralar həmin soykök Azərbaycan tibb elminə nə qədər ləyaqətli nümayəndələr verdi?..

Göyçək xanımın oğlu Qurban Əliyev Azərbaycan Tibb İnstitutunu bitirmiş, sonra dissertasiya müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsini almışdı. Ancaq onun fəaliyyəti səhiyyə ilə məhdudlaşmamış, ictimai-siyasi fəaliyyəti ilə seçilmişdi. O, bir müddət Sahil (keçmiş 26 Bakı komissarı) rayon partiya komitəsinin birinci katibi, uzun illər respublikanın ali və orta ixtisas təhsili naziri vəzifəsində çalışmışdır. Qardaşı Yusif də həkim idi...

Göyçək xanımın qardaşı Ziyad da Tibb İnstitutunu bitirərək həkimlik peşəsinə yiyələnmişdi. Bu nəslin görkəmli nümayəndələrindən biri Şamama Ələsgərovadır. O, 1904-cü il martın 8-də İrəvanda anadan olmuş, ilk təhsilini gimnaziyada almışdı. Həyatın hər cür sərt üzünü görən Şamama 1941-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirir və cəbhəyə göndərilir. Sonra Şamama müharibə illərində Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığında şöbə müdiri, kadrlar idarəsinin rəisi olmuşdu.

1945-ci ildə Şamama xanım N.Krupskaya adına 5 nömrəli klinik doğum evinin baş həkimi təyin olunur və ömrünün sonuna kimi - 1977-ci il iyunun 2-nə kimi həmin vəzifəni yerinə yetirir. Onun yüksək təşkilatçılıq qabiliyyəti sayəsində doğum evi respublikanın iri müalicə prof-



laktika idarəsinə çevrilmiş və keçmiş ittifaqda geniş şöhrət qazanmışdı.

Şamama xanım 1958-ci ildə "Səhiyyə əlaçısı", iki il sonra respublikanın əməkdar həkimi adına layiq görülür. 1969-cu il fevralın 5-də Şamama xanıma xidmətlərinə görə Sosialist Əməyi Qəhrəmanı adı verilir. O, respublikada bu ada layiq görülən ilk səhiyyə işçisi idi. Şamama xanım haqqında dövri mətbuatda - "Pravda", "Komsomolskaya pravda", "İzvestiya," "Bakı", "Baku" və digər mərkəzi orqanlarda müntəzəm olaraq məqalələr dərc edilmişdi.

Şamama xanım Azərbaycan SSR Ali Sovetinin IX çağırış deputatı olmuşdur. "Şərəf nişanı" ordeni və medallarla təltif edilmişdi.

Bu məşhur nəsildə böyük nüfuza malik şəxslərdən biri də Əziz Məmmədkərim oğlu Əliyev olmuşdur. Görkəmli alim və ictimai xadim Əziz Əliyev 1897-ci ildə yanvar ayının birində İrəvan şəhəri yaxınlığında olan Hamamlı kəndində dünyaya göz açmışdı. İlk təhsilini İrəvanda İbadulla bəy Muğanlinskinin pansionatında almışdı. Ona pansionatda Fars Abbasın oğlu, gələcəyin tanınmış dilçi-alimi Cabbar Məmmədzadə dərs demişdir. Burada onlar ərəb, fars, rus dili ilə yanaşı fransız dilini də öyrənirdilər. Görkəmli tədqiqatçı-alim Əziz Şərif yazır ki, o zaman azərbaycanlı uşaqları gimnaziyaya hazırlaşdırmaq üçün İrəvanda iki pansionat var idi. Bunların birini müəllim Cəfər bəy Cəfərov, ikincisini İbadulla bəy Muğanlinski ilə Cabbar bəy Məmmədov saxlayırdı. Əziz Əliyev pansionatı bitirdikdən sonra 1908-ci ildə İrəvan gimnaziyasında təhsilini davam etdirmişdir.

Bu dövrdə İrəvan özünün qaynar çağlarını yaşayırdı. Bu tipik müsəlman şəhəri Qafqazda elmin, maarifin, mədəniyyətin ən çox inkişaf etdiyi mərkəzlərdən biri idi. Burada 1981-ci ildən müəllimlər seminariyası, gimnaziya, o cümlədən bir qadın gimnaziyası, 2 pansionat, Haşım bəyin məktəbi fəaliyyət göstərirdi.

İrəvanda "Leylək" satirik jurnalı və "Həqiqət" ədəbi-bədii jurnalı nəşr olunurdu.

Belə bir işıqlı mühitdə İrəvan gimnaziyasında təhsil alan gənc Əziz Əliyev öz üzərində ciddi çalışırdı. O, 1914-cü ildə atasının xəstələnməsi ilə əlaqədar təhsilini davam etdirməklə yanaşı, axşamlar uşaqları hazırlaşdırmaqla məşğul olur. Dünya şöhrətli alim, akademik M.Topçubaşovun Əziz Əliyevlə bağlı xatirəsi maraqlıdır: "Mən Əzizi hələ Yerevandan tanıyırdım. Biz müxtəlif gimnaziyalarda oxuyurduq, ancaq evlərimiz yaxın idi, bəzi qohumlara nisbətən daha yaxın, sevinc və kədərimizi bir yerdə bölüşərdik. Atam Əzizi çox sevərdi, bu ağıllı və fərasətli oğlanı. Gimnaziyadan sonra Əziz öz məhəllə uşaqlarına dərs verərdi. Atam tez-tez Əzizi mənə nümunə göstərərdi:

-Əziz səndən iki yaş kiçikdir, ancaq iki dəfə ağıllıdı. Müəllim lazım deyil. Özü öyrənir və başqalarını öyrədir. Əgər bir şey çıxsa, Əziz kimisindən çıxacaq".

Ə.Əliyev 1917-ci ildə İrəvan gimnaziyasını qızıl medalla bitirir.

Lakin təhsilini davam etdirməyə maddi imkanı çatmır. Ə.Əliyev bu məqsədlə məşhur milyonçu, xeyirxah insan H.Z. Tağıyevə məktubla müraciət edir və Hacı ona 300 manat pul göndərir. O, Peterburqa gedir və Hərbi-Tibb Akademiyasına daxil olur.

1918-ci ildə 2-ci kursda ikən Əziz yay tətilini İrəvanda keçirir. Həmin il atası vəfat etdiyindən

ailənin bütün ağırlığını çiynində daşımağa məcbur olan Ə.Əliyev təhsilini yarımçıq qoymalı olur. Daşnak fitnəkarlarının baş qaldırması üzündən onlar ailəliklə əvvəlcə Naxçıvanın Şərur rayonuna, sonra Şahtaxtı kəndinə, oradan da İranın Ərəblər kəndinə köçürlər. 1921-ci ildə yenidən Şahtaxtına qayıdırlar. İki il burada yaşayırlar. 1923-cü ilin may ayında Ə.Əliyev Bakıya gəlib işə düzəlir. O, həmin il Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsinin terapevt şöbəsinə qəbul olur və 4 il sonra oranı müvəffəqiyyətlə bitirir. Bundan sonra Ə.Əliyevin gərgin əmək fəaliyyəti başlayır. O, 1929-cu ilin oktyabrından respublika Xalq Səhiyyə Komissarının müavini, sonra Kliniki İnstitun direktoru, 1932-ci ildə isə Azərbaycan Dövlət Tibb İnstitutunun rektoru təyin edilir. Tibb elmləri namizədi, dosent Baxış Qəhrəmanov qeyd edir ki, rektor olduğu üç il müddətində (1932-35) onun yüksək təşkilatçılığı sayəsində Azərbaycan dilində 45 adda dərslik və dərs vəsaiti hazırlanıb nəşr olunur. Onların içərisində Ə.Əliyevin "Kliniki-diaqnostik laboratoriya analizi", K. Balakişiyevin "İnsanın normal anatomiyası", M.Qəniyevin "Mikrobiologiya kursu", U. Musabəylinin "Göz xəstəlikləri", Y.Qazıyevin "Yüngül vərəm" və s. fundamental əsərlər bu qəbildəndir.

Ə.Əliyev həmişə yüksək və məsul vəzifələrdə çalışmışdı. O, 1934-cü ilin mart ayında Bakı şəhər səhiyyə şöbəsinin müdiri seçilir və 3 aydan sonra yenidən əvvəlki vəzifəsinə - ATİ-nin rektoru vəzifəsinə qaytarılır. O, eyni zamanda Azərbaycan Əczaçılıq İnstitutunun direktoru olur və 1938-ci il iyunun birinə kimi hər iki instituta başçılıq edir.

1935-ci ildə Ə.Əliyev namizədlik dissertasiyası müdafiə edir və iki il sonra dosent adma layiq görülür. Zəhmətkeş alim 1937-ci ildə doktorluq dissertasiyasını müdafiə edir. Onun dissertasiya işi 1938-ci ilin sonunda pul mükafatına layiq görülür.

Ə.Əliyevin elmi işi ictimai fəaliyyətindən heç də təcrid edilməmişdi. O, 1936-cı ildə Zaqafqaziya MİK-nin üzvü, 1937-ci ildə isə SSRİ Ali Sovetinə və Azərbaycan SSR Ali Sovetinə deputat seçilir.

Bu illər ərzində Ə.Əliyev 20-dən artıq elmi və publisistik məqalələr dərc etdirir, Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığına, Azərbaycan Dövlət Universitetinə başçılıq edir.

30-cu illərin sonunda Ə.Əliyev artıq öz təşkilatçılıq bacarığı ilə respublikada ən nəzərəçarpacaq kadrlardan idi. Getdikcə o, daha məsul vəzifələrə irəli çəkilir, əvvəl Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin katibi, 1941-ci ilin mart ayında isə Azərbaycan KP MK-nın katibi seçilir. Müharibə başlayarkən əldə olunmuş razılığa əsasən keçmiş sovet ordusu İrana daxil olur, Ə.Əliyev hərbi şuranın üzvü kimi oraya göndərilir.

Alman qoşunları keçmiş SSRİ-nin demək olar ki, bütün Avropa hissəsini işğal etmişdi. Artıq Şimali Qafqaz almanların əlində idi, döyüşlər Dağıstanın sərhədlərinə gəlib çatmışdı. Dağıstan kimi çoxmillətli respublikaya rəhbərlik etmək üçün son dərəcə yüksək səviyyəli bir kadr lazım idi. Belə bir şəxs Ə.Əliyev oldu. M.Topçubaşov bu barədə yazır: "ÜİK (b)P MK-dan Dağıstanda işləmək üçün 2 yoldaş istədilər. Respublika Əziz Əliyevi təqdim etdi. Bizim 2-ci Əziz Əliyevimiz yoxdur, - dedilər".

1942-ci ilin sentyabr ayında MK onu Dağıstana birinci katib göndərir. Dağıstanda 1942-1948-ci illərdəki fəaliyyəti Ə.Əliyevin həyatında xüsusi mərhələ təşkil edir. Bu zaman vilayət özünün çox ağır bir dövrünü keçirirdi. Dağıstan ərzağın, neftin eşalonlarla göndərilməsi üçün cənub respublikaları ilə cəbhə arasında bir növ körpü rolunu oynayırdı. Əziz Əliyev belə bir ağır şəraitdə fəaliyyətə başladı, gərgin əməyi və yorulmadan çalışmağı sayəsində qarşıdakı bu çətinliklərin öhdəsindən bacarıqla gəldi. Dağıstanın keçmiş birinci katibi M.S. Umaxanov yazır ki, Ə.Əliyev cəbhədə yaralananlara, müharibə əlillərinə böyük qayğı göstərir, döyüşçü ailələrini hamiliyə götürməyi ən vacib məsələlərdən sayırdı. Bu iş hazırda xalqımız üçün nə qədər xarakterikdir. Müharibə illərində Dağıstanda 7 min pulemyotçu, 3200 minomyotçu, 20 min avtomatçı, 1580 radist, 500 snayperçi hazırlanır. 200 mindən artıq əhali işğal olunmuş ərazilərdən köçürülərək Dağıstanda yerləşdirilir. Bu iş-

lərin hamısı Mahaçqala Müdafiə Komitəsinin rəhbəri Ə.Əliyevin başçılığı altında həyata keçmişdir.

Onun Dağıstanın birinci katibi olduğu illərdə vilayətdə bütün sahələrdə - kənd təsərrüfatında, elmdə, təhsildə, mədəniyyətdə güclü inkişaf özünü göstərir. Bu dövrdə Dağıstanda akademik-mərkəz elmi-tədqiqat bazası (sonralar SSRİ EA-nın filialına çevrilir), Qadınlar İnstitutu və qadınlar məktəbi açılır. Vilayətin gəncləri təhsil almaq üçün keçmiş SSRİ-nin ali məktəblərinə göndərilir. O zaman Ə.Əliyevin təhsil almağa göndərdiyi adamlardan biri də Dağıstanın xalq şairi, Dövlət mükafatı laureatı Rəsul Həmzətov idi. Ə.Əliyev respublikanın ədəbiyyat və incəsənət xadimlərinə də həmişə qayğı göstərmiş, onların yaradıcılığı üçün lazımi şərait yaratmışdı.

Dağıstanın xalq şairi Əbdül-Vahab Süleymanov yazır ki, ordudan tərxis olunduqdan sonra Ə.Əliyev onu Dağıstan Yazıçılar İttifaqının rəhbəri təyin edir və şairin əsərlərinin bir cildliyinin nəşri üçün vilayətin katibi Ələkbərova tapşırıq verir. Çox çəkmir ki, şairin 17 müəllif vərəqi həcmində ilk şeirlər kitabı nəşr olunur.

1942-ci ildə Dağıstana birinci katib təyin olunmuş istedadlı dövlət xadimi Əziz Əliyev işlədiyi 6 il müddətində muxtar respublikada misli görünməmiş dərəcədə böyük işlər görür. Və eyni zamanda, həmin ərazidən SSRİ Ali Sovetinə və Dağıstan MSSR Ali Sovetinə deputat seçilir. Xalq arasında "Qurucu Əziz" adı ilə tanınan Əziz Əliyev 1948-1950-ci illərdə ÜİK (b) P MK-nın inspektoru, 1950-1951-ci illərdə isə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində çalışır. Uzun müddət öz peşəsindən - həkimlik sənətindən ayrılan Ə.Əliyev, 1952-ci ildə Azərbaycan SSR Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru təyin olunaraq yenidən öz peşəsinə qayıdır. Onun rəhbərlik etdiyi müddətdə Ə.Əliyevin redaktorluğu ilə institutun 5 cildlik elmi əsərləri, 122 elmi iş və metodik xarakterli 13 broşür nəşr olunur. Əziz Əliyev 1958-ci il aprel ayının 14-də professor adına layiq görülür. Həmin ildən ömrünün sonuna kimi (1962) Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutuna başçılıq edir.

Əziz Əliyev özündən sonra qüvvətli bir ziyalı ocağı yaratmışdı. Onun qızı Zərifə xanım məşhur oftalmoloq, Azərbaycan EA-nın həqiqi üzvü idi.

Zərifə xanım 1947-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmiş, 1959-cu ildə oftalmologiya sahəsində dissertasiya müdafiə edərək namizədlik, 1976-cı ildə tibb elmləri doktoru alimlik dərəcəsi almış, 3 il sonra isə professor elmi adına layiq görülmüşdür.

Z.Əliyeva Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri olmuş, iki kitab, 4 monoqrafiya, 150-yə qədər məqalə və tezis çap etdirmiş, 5 səmərələşdirici təklif vermişdi. Onun rəhbərliyi altında 4 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir.

Z.Əliyeva "Oftalmologiyanın gündəliyi" jurnalının redaksiya şurasının üzvü, SSRİ Oftalmologiya Cəmiyyətinin idarə və rəyasət heyətinin tərkibinə seçilmişdir. O, "Azərbaycanın əməkdar elm xadimi" adına layiq görülmüş, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir. M.N. Averbax mükafatının laureatı idi.

Ə.Əliyevin böyük oğlu Tamerlan 1944-cü ildə N.Nərimanov adına Tibb İnstitutunu bitirib, 1969-cu ildə tibb elmləri doktoru alimlik dərəcəsi alıb, 1970-ci ildən professor işləyib, 1970-ci ildən 80-ci ilə qədər daxili xəstəliklər kafedrasının müdiri vəzifəsində çalışıb, 1990-cı ildən kafedranın professoru olub. 200-dən çox elmi əsərin, 10 monoqrafiyanın müəllifidir. 25 nəfər elmlər namizədi, 5 nəfər doktor yetirmişdir.

T.Əliyev "Şərəf nişanı" ordeninə, ÜXTNS-in (Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin) Qızıl medalına, "Oktyabr inqilabı" ordeninə, əməkdar elm xadimi adına, dövlət mükafatına layiq görülmüşdür.

T.Əliyev "Azərbaycan tibb jurnalı"nın redaksiya kollegiyasının üzvü, Tibb Universiteti elmi müdafiə şurasının sədri və respublikanın baş terapevti idi. (Tahir Talıblı. Əziz Əliyev, dövrü, həyatı, şəxsiyyəti. Göytürk 1997, səh.274).

"Dan Ulduzu" instrumental ansamblının rəhbəri Gülarə Əliyeva isə "ailə adət-ənənələrinə sığmadı və incəsənəti seçdi".

Haşiyə: 1990-cı ilin sentyabr ayında Azərbaycan Ali Sovetinə seçkilər keçirilirdi. Komissiyanın üzvü kimi əhalini siyahıya alırdım. Azadlıq prospekti 41-dəki mənzillərin birində ilk baxışda üzdən tanış gələn ortaboylu qadından adını və soyadını soruşduqda cavab verdi: Gülarə Əziz qızı Əliyeva. Cəld soruşdum: Siz Əziz Əliyevin qızısınız?-Bəli,-dedi.

Azərbaycanlıların dədə-baba yurdlarından kütləvi surətdə son nəfərinədək qovulması ona çox pis təsir etmişdi. Bəzən gözləri bir nöqtəyə dikilib baxan Gülarə xanım bəlkə öz ulularını, ata-baba ocağını xatırlayırdı. Ona söylədim ki, əgər görüşəcəyimizi bilsəydim, yenicə nəşr olunmuş "İrəvanda nə qaldı ki?" məqaləmi sizə gətirərdim". Cavab verdi ki, sağlıq olsun, bir də görüşəndə gətirərsən. Təəssüf ki, bu bizim Gülarə xanımla ilk və son görüşümüz oldu.

G.Əliyeva 1956-ci ildə konservatoriyanı əla qiymətlərlə bitirib, Azərbaycan Elmlər Akademiyasının Heykəltəraşlıq və İncəsənət İnstitutunun aspiranturasına daxil olmuşdur. 1966-cı ildə "Bəstəkar F.Əmirovun yaradıcılığı" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

O, 1967-ci ildən 1989-cu ilə qədər M.Əliyev adına İncəsənət İnstitutunun musiqi kafedrasının müdiri, institutun elmi şurasının üzvü olmuşdur.

G.Əliyeva 1977-ci ildə "Azərbaycan SSR əməkdar incəsənət xadimi " adı almışdır.

1968-ci ildə "Dan Ulduzu" kamera-instrumental əsərini yaratmış və ömrünün sonuna kimi onun rəhbəri olmuşdur.

Cəmil Əliyev 1978-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunu bitirmiş, 1973-cü ildə namizədlik, 1978-ci ildə keçmiş SSRİ Tibb Elmləri Akademiyasında doktorluq dissertasiyasını müdafiə etmişdir. 1988-ci ildə C.Əliyevə professor elmi rütbəsi verilmişdir.

O, 1990-cı ildən Respublika Onkoloji Elmi Mərkəzinin direktorudur.

Professor C.Əliyev 8 monoqrafiyanın (biri ingiliscə nəşr edilib), Azərbaycanda və xaricdə



çap edilmiş 150-dən çox elmi məqalənin, 4 kəşfin və çoxlu yeniliyin müəllifidir. "Dəridə bədxassəli şişlərin plastik cərrahiyyəsi" əsərinə görə SSRİ EA-nın N.N.Petrov mükafatına layiq görülüb. Onun rəhbərliyi altında 15 nəfər namizədlik, 2 nəfər isə doktorluq dissertasiyası müdafiə etmişdir.

C.Əliyev Respublika Elmi Tibb-Onkoloji Cəmiyyətinin, eyni zamanda Respublika Səhiyyə Nazirliyinin Attestasiya Komissiyasının sədri, "Azərbaycan tibb jurnalı"nın redaksiya şurasının üzvüdür. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

XX əsrin sonlarında İrəvan müəllimlər seminariyasında dərs demiş məşhur ədəbiyyatşünas Firudin bəy Köçərli yazır ki, şəhri-İrəvan keçmişdə mərkəzi-üləma, füzəla və şüəra olubdu. Bəli, XIX əsrin ortalarından başlayaraq İrəvan bir sıra güclü ziyalı nəsillər yetirmiş və XX əsrdə də onların bu nəsil ənənəsi ləyaqətlə davam etmişdi: Mirbabayevlər, Qazıyevlər, Qədimbəyovlar (Mirzə Qədim İrəvani nəsli), Məmmədzadələr ("fars Abbasın nəsli") və s.

Şübhəsiz ki, XX əsrdə Əziz Əliyev, Şamama Ələsgərova, Tamerlan, Zərifə, Qurban, Cəmil, Gülarə, məşhur xalçaşünas, respublikanın xalq rəssamı Kamil Əliyevlər kimi elm, dövlət, sənət adamlarını yetirmiş bu nəsil XXI əsrdə kökü üstə ucalan yeni-yeni pöhrələr yetirəcəkdir.